# MİLLİ AZLIQLARIN MÜDAFİƏSİ HAQQINDA ÇƏRÇİVƏ KONVENSİYASI



Suallar və cavablar

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## Çərçivə Konvensiyası nədir?

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası 1998-ci ildə qüvvəyə minib və milli azlıqlara mənsub şəxslərin hüquqlarını qorumaq üçün nəzərdə tutulmuş hərtərəfli beynəlxalq müqavilədir.

## Niyə Çərçivə Konvensiyası adlanır?

Çərçivə Konvensiyasının mətnində fərdlərin yararlandığı hüquqlar və dövlətlər tərəfindən riayət edilməli olan tamamlayıcı öhdəlikləri təsbit edilib. Konvensiya beynəlxalq hüquqa əsasən hüquqi olaraq məcburi sənəd olsa da "Çərçivə" sözü iştirakçı dövlətlərin Konvensiyanın bəzi müddəalarını milli qanunvericilik və hökumət siyasəti vasitəsilə öz xüsusi ölkə vəziyyətinə uyğunlaşdırmaq imkanını vurğulayır.

> ... plüralist və əsl demokratik cəmiyyət sadəcə milli azlığa mənsub olan hər bir şəxsin etnik, mədəni, dil və dini kimliyinə hörmət etməməli, eyni zamanda da onlara bu kimliyi ifadə etmək, qoruyub saxlamaq və inkişaf etdirmək üçün müvafiq şərait yaratmalıdır...

## Çərçivə Konvensiyası ilə kim qorunur?

Çərçivə Konvensiyasında "milli azlıq" anlayışı mövcud deyil. Hər bir iştirakçı dövlətin öz ərazisi daxilində hansı qrupların konvensiya tərəfindən əhatə olunacağını müəyyən etmək üçün təqdir səlahiyyətinə malikdir. Bu tərif ayrı-seçkiliyə yol verməməli, vicdanla və beynəlxalq hüququn ümumi prinsiplərinə və həmçinin sərbəst özünüidentifikasiya prinsipinə uyğun olmalıdır.

Sərbəst özünüidentifikasiya prinsipi fərdlərin özlərini milli azlığa mənsub biri kimi rəftar edilmələrini istəyib-istəmədiklərini özlərinin həll etmək hüququna malik olduqlarını ifadə edir. Amma onların qərarı din, dil, adət-ənənə və mədəni irs kimi kimlikləri ilə əlaqəli olan obyektiv meyarlara əsaslanmalıdır.

Dövlətlər milli azlığın Çərçivə Konvensiyasına əsasən müəyyən edilməsi ilə bağlı müxtəlif yanaşmalara malikdilər, məsələn, Çərçivə Konvensiyasının müdafiəsindən yararlanacaq ənənəvi qrupların müəyyən siyahısı ilə məhdudlaşdırıcı yanaşmadan tutmuş konvensiyanın maddələrini geniş qruplara çevik şəkildə tətbiq edən daha açıq yanaşmaya qədər sahibdirlər.

# Çərçivə Konvensiyası necə monitorinq edilir?

Çərçivə Konvensiyasının monitorinqi 18 müstəqil ekspertdən ibarət qurum olan Çərçivə Konvensiyası üzrə Məşvərət Komitəsi ilə birlikdə Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən həyata keçirilir.

**Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının monitorinqi**

**1**

Hər 5 ildən bir hər bir iştirakçı dövlət **dövlət hesabatını** təqdim edir

Məslәhət Komitəsi digər mənbələrdən, həmçinin vətəndaş cəmiyyəti təşkilatlarının alternativ hesabatlarından da məlumat toplayır.

**2**

Məsləhət Komitəsinin nümayəndə heyəti **ölkəyə səfər** təşkil edir

Ölkəyə səfərlərə hökumət rəsmiləri, millət vəkilləri, azlıqların nümayəndələri, QHT-lər, ombudsmanlar, Milli İnsan Hüquqları İnstitutları, alimlər, jurnalistlər və s. ilə görüşlər daxildir.

**3**

Məsləhət Komitəsi **rəy** qəbul edir

1-ci layihə təsdiq edildikdən sonra məxfi dialoq mərhələsi dövlətə faktiki müşahidələr və dəqiqləşdirmələr təqdim etmək üçün 2 ay vaxt verir. Yekun rəy növbəti plenar iclasda qəbul edilir

**4**

Dövlət orqanları öz **şərhlərini** təqdim edə bilər

Dövlət orqanları 4 ay ərzində yekun rəylərini təqdim edə bilər. Dövlət rəyin qəbul edildiyi gündən etibarən onun dərc olunmasını tələb edə bilər. Rəy ən geci şərhlər üçün son tarixin bitdiyi gün açıqlanır.

**5**

Avropa Şurasının Nazirlər Komitəsi **qətnamə** qəbul edir

Qətnamə özündə müvafiq dövlətə ünvanlanmış təcili tədbirlər də daxil olmaqla tövsiyələri ehtiva edir.

” … Avropa tarixində baş vermiş sarsıntılar milli azlıqların müdafiəsinin bu qitədə sabitlik, demokratik təhlükəsizlik və sülh üçün vacib olduğunu göstərdi...

## Milli azlıqlara aid olan fərdlərin yararlandığı hüquqlar

## Və dövlətlər tərəfindən yerinə yetirilməli olan tamamlayıcı öhdəliklər

Etnik, mədəni, dil və dini kimlikləri sərbəst ifadə etmə - Ayrı-seçkiliyə məruz qalmama - Səmərəli bərabərliyi təşviq etmə - Azlıqların mədəniyyətlərini, dinlərini və dillərini qoruma və inkişaf etdirmə - Mədəniyyətlərarası dialoqu təşviq etmə və azlıqlara mənsub şəxsləri düşmənçilik və ya zorakılıqdan qoruma - Sərbəst toplaşma, birləşmə, ifadə, fikir, vicdan və din azadlığından yararlanma - Azlıqların dillərində yayım və azlıqların mediasına dəstək ilə müxtəlif media məkanının təşviqi - Ənənəvi olaraq və ya milli azlıqların əhəmiyyətli sayda yaşadığı ərazilərdə hakimiyyət orqanları ilə təmas zamanı azlıqların dillərindən istifadə etmə - Şəxsi adların, yer adlarının və digər topoqrafik göstəricilərin azlıqların dillərində yazılması - Təhsili hamı üçün əlçatan etmə və mədəniyyətlərarası biliklərin təşviqi - Özəl və dövlət məktəblərində azlıqların dillərinin öyrədilməsi və bu dillərdə tədris - Milli azlıqlara mənsub şəxslərə aid məsələlərlə bağlı ictimai qərarların qəbuluna təsir göstərə bilmə - Mədəni, sosial və iqtisadi həyatda iştirak etmə - Azlıqların hüquqlarını məhdudlaşdırmaq üçün siyasi məqsədlə seçki bölgələrinin sərhədlərinin dəyişdirilməsi - İkitərəfli, çoxtərəfli və sərhədyanı əməkdaşlıq vasitəsilə azlıqların hüquqlarını təşviq etmə

## Milli azlıqlara mənsub şəxslər Çərçivə Konvensiyası ilə harada qorunur?

Çərçivə Konvensiyasının qüvvədə olduğu 38 dövlət* var. Birləşmiş Millətlər Təşkilatının Kosovoda Müvəqqəti İdarəetmə Missiyası (UNMIK) ilə Kosovo** haqqında xüsusi monitorinq sazişi mövcuddur.

► Çərçivə Konvensiyasının iştirakçısı olan dövlətlər

Albaniya
Ermənistan
Avstriya
Azərbaycan
Bosniya və Hersoqovina
Bolqarıstan
Xorvatiya
Kipr
Çexiya
Danimarka
Estoniya
Finlandiya
Gürcüstan
Almaniya
Macarıstan
İrlandiya
İtaliya
Latviya
Lixtenşteyn
Litva
Malta
Moldova Respublikası
Monteneqro
Niderland
Şimali Makedoniya
Norveç
Polşa
Portuqaliya
Rumıniya
San-Marino
Serbiya
Slovak Respublikası
Sloveniya
İspaniya
İsveç
İsveçrə
Ukrayna
Birləşmiş Krallıq

► Çərçivə Konvensiyasını imzalamış amma ratifikasiya etməmiş dövlətlər

Belçika
Yunanıstan
İslandiya
Lüksemburq

► Çərçivə Konvensiyasını nə imzalamış nə də ratifikasiya etmiş dövlətlər

Andorra
Fransa
Monako
Türkiyə



---

* Rusiya Federasiyası 1998-ci ildən 2024-cü ilə qədər dövlət üzvü olub.

** Bu mətndə Kosovoya, əraziyə, qurumlara və ya əhaliyə edilən bütün istinadlar Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1244 saylı Qətnaməsinə tam uyğun olaraq və Kosovonun statusuna xələl gətirmədən başa düşülməlidir.

”… tolerantlıq və dialoq mühitininyaradılması mədəni müxtəlifliyin hər bir cəmiyyət üçün bölünmə deyil, zənginləşmə mənbəyi və faktoru olmasını təmin etmək məqsədilə əhəmiyyət kəsb edir...

## MƏLUMAT

**Təmas:**
Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının katibliyi

Avropa Şurası
F-67075 Strasburq Cedex
minorities.fcnm@coe.int
**www.coe.int/minorities**

QHT-lərin rolu haqqında daha ətraflı məlumat üçün:
**www.coe.int/en/web/minorities/role-of-ngos**

PREMS 128923

AZE

**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE